# Uşaqlarda mütaliəyə marağı artırmağa yönələn oxucu müsabiqəsi

Təhsil Nazirliyinin şagirdlərin mütaliəyə həvəsinin artırılması, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması , böyüməkdə olan gənc nəslin intellektual səviyyəsinin yüksəldilməsi məqsədi ilə həyata keçirdiyi yeni layihələr: "Mütaliə vərdişlərinin və oxuya motivasiyanın yüksəldilməsi", "Ədəbiyyat biliciləri" müsabiqəsi və s. digər qurumları da bu sahədə bir sıra tədbirlər keçirməyə sövq edib. Uşaq və tədris ədəbiyyatı sahəsində ixtisaslaşan "Altun kitab" nəşriyyatının elə bu yaxınlarda keçirdiyi "Altun piramida" oxucu müsabiqəsi də yeniyetmələrin mütaliə vərdişlərinin inkişaf etdirilməsinə,onların mütaliəyə həvəsləndirilməsinə yönələn ən uğurlu layihələrdən biri hesab oluna bilər. "Altun kitab" nəşriyyatının direktoru Rafiq İsmayılovdan şagirdlər tərəfindən maraqla qarşılanan bu müsabiqə haqqında məlumat verməsini xahiş etdik. Rafiq müəllim dedi:



- Təhsil naziri Mikayıl Cabbarovun mətbuatdakı son çıxışlarından və nazirliyin həyata keçirdiyi layihələrdən belə qənaətə gəlmək olar ki, bu gün orta ümumi təhsil sahəsində əsas strateji istiqamətlərdən biri şagirdlərin ümumi dünyagörüşünün və erudisiyasının genişləndirilməsi, nitq bacarıqlarının, analitik və tənqidi təfəkkürün inkişafıdır. Sözsüz ki, bu inkişaf orta təhsil proqramının mənimsənilməsi zəminində, onunla yanaşı baş verməlidir. Bu strategiyanı həyata keçirməyin ən yaxşı yollarından biri də uşaqlarda mütaliəyə həvəs yaratmaqdır. Təşkil etdiyimiz müsabiqənin də əsas məqsədi bundan ibarətdir.

"Altun piramida" internet vasitəsilə onlayn rejimində keçirilən müsabiqədir və 5 raunddan ibarət seçmə mərhələsindən, yarımfinal, həmçinin finaldan ibarətdir. Hər bir raund üzrə əvvəlcədən müəyyən mövzu və həmin mövzu üzrə kitablar (3-5 kitab) elan edilir. Müsabiqədə iştirak etmək istəyənlər nəşriyyatın saytında qeydiyyatdan keçərək müsabiqə ilə bağlı elanları buradan izləyə bilirlər. Onu da deyim ki, onlayn müsabiqənin keçirilməsi üçün xüsusi proqram yaradılmışdır. İştirakçılar təyin olunmuş vaxtda saytın müvafiq bölməsinə daxil olurlar və hamı eyni vaxtda ekranda təqdim olunan suallarla tanış olur. Suala birinci düzgün cavab verən iştirakçı bal qazanır. Müsabiqə tam şəffaf şəraitdə keçir. İndinin özündə də istənilən şəxs *altunkitab.az* saytına daxil olub I raunda düşmüş sualları, hər bir iştirakçının suala necə və neçənci saniyədə cavab verdiyini görə bilər. Bir sözlə, suallar açıq tipli olsa da, qaliblərin müəyyənləşdirilməsində subyektiv faktoru minimuma endirmişik. İlk raundun mövzusu "Elmi fantastika" idi. Mövzu seçərkən intellektual uşaq nəsrinə üstünlük veririk. Bu il ölkəmizdə "Multikulturalizm ili" elan olunduğundan kitab siyahısına daha çox dünya ədəbiyyatının klassik nümunələri salınır. Nəşriyyatımız 10 ildən çoxdur ki, dünya ədəbiyyatı incilərini uşaqlar üçün adaptasiya etməklə məşğuldur. Bu kitabların dili sadə olduğundan onları oxumaq çox da vaxt aparmır.

"Altun piramida" oxucu müsabiqəsində iştirak etmək üçün 500-ə yaxın şagird qeydiyyatdan keçib. I raundda 160 şagird iştirak edib. Artıq müsabiqənin I raundu başa çatıb və qalib müəyyən olunub. Bu, 52 nömrəli tam orta məktəbin IX sinif şagirdi Röya Məlikzadədir. O, 30 sualdan 16-na birinci olaraq düzgün cavab verərək qalib olub. Təqdirəlayiq haldır ki, paytaxt məktəbləri ilə yanaşı, respublikanın müxtəlif bölgələrindən olan şagirdlər də bu müsabiqədə fəallıq göstərirlər. Məsələn, Masallı rayon məktəblərinin şagirdlərindən biri bu raundda IV yeri tutub. Kürdəmir rayonu 6 nömrəli tam orta məktəbin bir şagirdi isə ilk onluğa düşüb. Paytaxtın 281 nömrəli tam orta məktəbinin, Bakı Avropa Liseyinin, 6 nömrəli məktəb-liseyin şagirdləri də çox fəaldırlar.

Hər raundda ən yüksək nəticə göstərmiş 10 iştirakçı müəyyən olunur və mükafatlandırılır. 1-ci yeri tutmuş şagirdə planşet hədiyyə edirik, qalan şagirdlər isə nəticələrindən asılı olaraq müxtəlif sayda kitablarla mükafatlandırılırlar.

Artıq 2-ci raundun mövzusu və kitab siyahısı elan olunub. Bu raund aprelin 17-də Beynəlxalq Kitab Günü ərəfəsində baş tutacaq. Beş raunddan sonra ən yüksək nəticə göstərmiş 25 iştirakçı arasında yarımfinal keçiriləcək. Onların arasından beş iddiaçı finala vəsiqə qazanacaq. Final yarışması virtual deyil, real məkanda keçiriləcək. Burada uşaqlar yalnız bilik deyil, həm də ümumi erudisiya, məntiqi təfəkkür və ritorika bacarıqlarını nümayiş etdirəcəklər.

"Altun piramida" uşaqlarda mütaliəyə marağı artırmağa yönələn bir oxucu müsabiqəsidir. Fikrimcə, belə səpgidə müsabiqələrin keçirilməsi olduqca əhəmiyyətlidir. Bu cür oxucu müsabiqələrində uduzan olmur. Belə ki, əgər müsabiqəyə qoşulan şagird elan olunmuş dörd kitabı oxuyubsa, deməli artıq nə isə qazanıb. Ümid edirəm ki, həyata keçirdiyimiz bu layihənin gələcəkdə miqyası daha da genişlənəcək.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*